# MİLLİ BİRLİYİN ƏHƏMİYYƏTİ



HARUN YƏHYA

HARUN YƏHYA (ADNAN OKTAR)

# MİLLİ BİRLİYİN ƏHƏMİYYƏTİ

*Milli mədəniyyət, milli şəxsiyyət və Türk-İslam birliyi — milli birliyin əhəmiyyəti və mənəvi dəyərlərə bağlılıq.*

— 8 fəsil —

# Mündəricat


1 Giriş 4

2 Milli mədəniyyətin mənası 6

3 Türk milli mədəniyyətinin coğrafiyası 9

4 Türk milli mədəniyyətinin xarakteri 11

5 Türk milli mədəniyyətinin mənşəyi: mənəvi dəyərlərə bağlılıq 16

6 Müasir Türkiyənin önündəki ən gözəl nümunə 24

7 Milli mədəniyyətimizin mühafizəsi və yeni nəsillərə çatdırılması 32

8 Nəticə olaraq... 39

FƏSİL

# Giriş

Bir cəmiyyəti, üz-üzə gəldiyi maneələr qarşısında müqavimətli və müzəffər edən, o cəmiyyəti meydana gətirən fərdlər arasındakı milli həmrəylik və birlik ruhudur. Bu birlik bağı, Böyük Öndər Atatürkün “Biz milli mövcudiyyətimizin təməlini, milli birlikdə və milli şüurda görməkdəyik” sözləriylə ifadə etdiyi kimi, bir millətin varlığını qoruyan və fərdlərini bir yerdə tutan ən güclü bağdır. Bunu zəifliyə uğradan və ya itirən cəmiyyətlərin ayaqda qalması mümkün deyil. Keçmişi və mədəniyyəti nə qədər qədimə söykənərsə söykənsin, milli və mənəvi bağlarının parçalanması, bir cəmiyyətdə degenerasiyanın baş qaldırmasını, anarxiyanın yaranmasını, ardından da bölünməyi və yox olmağı qaçınılmaz hala gətirər. Tarix; güclənmiş, yüksəlmiş, zənginləşib böyümüş lakin milli şüurunu itirməsindən ötəri varlığını itirmiş cəmiyyətlərin nümunələriylə doludur.



Türk millətinin saysız təhdid və çətinlik qarşısında əsrlərlə ayaqda qalması, heç bir zaman boyunduruq altına girmədən varlığını davam etdirməsi, hər biri digərindən güclü 16 böyük dövlət quraraq milyonlara hökm etməsi, insanımızın milli birlik mövzusundakı həssaslığının və vasvasılığının bir nəticəsidir. Türk insanının bu məqamdakı qəti olması, millətimizi tarix səhnəsində əsrlərdir lider və qabaqcıl mövqedə tutmuşdur.

Məhz bu gün 21-ci əsrə girməyə hazırlanarkən, Böyük Öndər Atatürkün bizə əmanəti olan vətənimiz dörd bir tərəfdən təhdidlərə məruz qalmış vəziyyətdədir. Bu müqəddəs torpaqlara göz tikənlər, dünya səviyyəsində gizli və açıq icra etdikləri kampaniyalarla, siyasi, ictimai və iqtisadi istiqamətdən hər fürsətdə düşmənliklərini ortaya qoymaqdadırlar. Bu bir həqiqətdir ki, millətimiz bütün bu təhdid və təhlükələrə ancaq bütünlüklə milli birlik ruhuna sarılaraq qarşı qoya bilər. Bu səbəblə, bu gün gərək daxili dinclik və sabitliyimizin, gərəksə xarici təhlükəsizliyimizin təmin edilməsi baxımından ən vacib ehtiyac, bu ruha sahib çıxılması və onun yayılmasıdır.

Dövlətimiz, bütün təşkilatlarıyla, hər keçən gün bu yoldakı mübarizəsində əhəmiyyətli məsafələr qət etməkdədir. Millətimizi bir-birinə birləşdirməyi, daha da sağlam və qüvvətli bir bağla bir-birinə bağlamağı hədəfləyən bu hərəkətlər, ideoloji, siyasi və ya şəxsi səbəblərlə bəzi insanlar tərəfindən tənqid olunsa da, nəticə etibarıyla həmişə millətimizin faydasına və xeyrinə olacaq davranışlardır.

FƏSİL

# Milli mədəniyyətin mənası

Milli mədəniyyət, bir dövləti saxlayan ünsürlərin ən əhəmiyyətlisidir. Çünki ancaq milli mədəniyyət meydana gəldiyində ortaya bir millət çıxar. Millət isə, mütləq bir dövlət meydana gətirər.





Əgər bir dövlətin xalqı, milli mədəniyyətini itirmişsə, yəni bir millət olmaqdan çıxmışsa, o dövlət qısa müddət ərzində mütləq yıxılar. Bu qaçınılmaz bir sondur. O dövlətin hərbi, ya da iqtisadi gücü, ayaqda qalmaq üçün yetərli olmaz. Buna qarşı əgər bir xalq, milli mədəniyyətə sahibdirsə, millət olduğunun şüurundadırsa, iqtisadi və siyasi istiqamətdən zəif də olsa, bir müddət sonra bu zəifliyi aşar və özü üçün bir dövlət yaradar.

Türkiyənin də içində olduğu Orta Şərq bölgəsinə baxdığımızda, milli mədəniyyətə sahib xalqların hər cür çətinliyə qarşı varlıqlarını qoruduqlarını, buna baxmayaraq bu mədəniyyətdən məhrum xalqların ən kiçik bir çətinlikdə dağılıb parçalandıqlarını görə bilərik.

İraq, milli mədəniyyətə sahib olmayan və bu səbəblə də parçalanan ölkələrə yaxşı bir nümunədir. İraq, bilindiyi kimi, I Dünya müharibəsinin ardından Osmanlının dağıdılmasının bir nəticəsi olaraq İngiltərə və Fransa arasındakı gizli "Says piko sazişi"nin nəticəsində qurulmuşdu. Amma ortada bir "İraq milləti" və təbii olaraq da "İraq Milli mədəniyyəti" yox idi, heç bir zaman da meydana gəlmədi. Bu səbəblə də İraq, Körfəz müharibəsinin doğurduğu siyasi sabitliksizliyin nəticəsində bir anda parçalanma prosesinə girdi. İraq nümunəsinə qarşılıq, o biri ucda Almaniya və Yaponiya nümunələrini görə bilərik. II Dünya müharibəsindən dağıntı halında çıxan bu ölkələr, milli mədəniyyətlərinin gücü sayəsində qısa müddətdə yığışaraq ciddi bir dünya gücü halına gəlmişlər.

Bu nümunələr ortaya açıq bir həqiqət çıxarmaqdadır: Dövlətin davamlılığı milli şüurun, milli mədəniyyətin gücünə bağlıdır. Əgər bir dövlət çox böyük hücumlarla da qarşı-qarşıya qalsa, xalqının sahib olduğu milli mədəniyyət onu yaşadar. Hətta o dövlət bəlkə yıxılar amma o millət, yerinə yenilərini qurar, sanki küllərindən yenidən doğular.

Bu səbəblə də bir Türk milliyyətçisi olaraq bizim missiyamız, dövlətin siyasi və hərbi gücünün artırılması ilə yanaşı, Türk Milli Mədəniyyətinin davamlılığı və inkişafı üçün çalışmaq, bu mədəniyyətə təhdid meydana gətirən ünsürləri ortadan qaldırmaqdır.

FƏSİL

# Türk milli mədəniyyətinin coğrafiyası

Tarix boyunca dünyada ən geniş coğrafi sahəyə yayılmış millət olaraq müsəlman Türkləri göstərmək səhv olmaz. Bu gün də "Müsəlman Türk dünyası" deyildiyi zaman, müsəlman Türk xalqlarının əksəriyyət və ya azlıq vəziyyətində yaşadığı bölgələr nəzərdə tutular. Çin və Monqolustanın daxilindən başlayaraq Türküstan, Qafqaz, Türkiyə və Balkanlardan Kosova, Makedoniya, Sancaq, Bosniyaya qədər uzanan bir sahədə müsəlman Türk xalqları yaşamaqdadır. Həmçinin, MDT (Müstəqil dövlətlər birliyi) içində də bir çox Türk boyu vardır. Tatar, Başqırd və Çuvaş boylarının və fin-uyğur qövmlərinin yaşadığı İdil-Ural bölgəsi, Yakutiya və Altay dağları ilə Baykal gölü arasındakı Altay, Xakasiya və Tuva bölgələri də Türk dünyasının sərhədləri içindədir.




Bundan başqa, Bolqarıstanın Deliorman, Mestanlı, Qızanlıq, Varna, Filibe, Plevne bölgələrində, Yunanıstanda Qərbi Trakyada, Polşada, Rumıniyanın Dobruca və Besarabya bölgələrində, Şimali İranda, Kiprdə, İraqın Kərkük

bölgəsində, Suriyada Lazkiye və Azezdə, Əfqanıstanda da türklərin yaşadığı bilinməkdədir.

Bütün bu dağılma, Müsəlman Türklərin geniş bir coğrafi sahədə yaşadıqlarını göstərməkdədir. Ancaq, əhali əksəriyyəti olaraq ələ alsaq, Anadolu Türkiyəsi xaricində Türk dünyasının iki böyük mərkəzinin Türküstan və Qafqaz olduğu görülər. Türk dünyasının bugünkü vəziyyətini qiymətləndirmək üçün bu iki bölgədə yaşayan Müsəlman Türk xalqlarının tarixlərini xatırlamaq lazımdır.

Orta Asiya ölkələrinə istiqamətli Çar Rusiyasının ilk hücumu, 1856-cı ildə Aral gölü ətrafında qurduğu hərbi bazalarla reallaşmışdır. Orta Asiya millətlərinin müqavimətləri qanlı bir şəkildə yatızdırılmış və bu ölkələr Çar Rusiyasının müstəmləkəsi halına gətirilmişdir. Bu ölkələr 1917-ci ildəki bolşevik inqilabını da qəbul etməyə məcbur edilmişlər. 70 il çar dövründə və 70 il də Kommunizm dövründə olmaq üzrə cəmi 140 il boyunca əsarət altında yaşayan müsəlman Türk xalqları, nəhayət 1990-cı ildən başlayaraq müstəqilliklərini qazanmışlar. 140 illik bu əsarət dövrü heç şübhəsiz, siyasi, iqtisadi və mədəni baxımdan böyük bir yıxım olmuşdur. Bu səbəbdən indi Orta Asiyadakı müsəlman xalqların həll etməsi lazım olan çox əhəmiyyətli məsələləri vardır.

FƏSİL

# Türk milli mədəniyyətinin xarakteri

Türk millətinin sahib olduğu "mədəniyyət", son dərəcə şərəfli tarix və üstün xarakterə söykənməkdədir. Türklər, tarix boyunca əsla əsarət altında yaşamağı qəbul etməmiş və 16 müstəqil dövlət qurmuş bir millətdir. Tarix boyunca mərdlikləri və dürüstlükləri ilə tanınmışlar, zülm və ədalətsizlikdən uzaq xarakterləriylə düşmənlərinin belə təqdirlərini qazanmışlar.









İslam tarixi araşdırıldığında, Abbasi dövlətinin son zamanlarından etibarən İslam bayrağının əl dəyişdirdiyi diqqət çəkməkdədir. Səlcuqlular ilə başlayan bu nəhəng müddət Osmanlıya qədər davam etmiş və bu əsrlər İslama böyük xidmətlərin edildiyi və müsəlmanlığın ən geniş coğrafi sahəyə, ən geniş insan kütlələrinə çatdırıldığı dövrlər olmuşdur.

Xalqımızın İslamiyyətlə şəkillənən xarakterinin ən diqqət çəkən xüsusiyyəti, haqsızlığa və zülmə qarşı olan reaksiyasıdır. Türk xalqı, tarix boyunca bir çox imperatorluqlar və super dövlətlər qurmuş, üç qitəyə nizam vermişdir. Ədalət və həmrəylik prinsipləri üzərinə qurulmuş Türk dövlət anlayışı, azadlığın, sülhün və hüzurun zəmanəti olmuşdur. Tarix səhnəsində müsəlman türklər dərhal hər dövrdə, "idarəçi" xüsusiyyətləriylə özlərini göstərmişlər, ədalətli və mərhəmətli rəhbərlikləriylə nümunə təşkil etmişlər. Türk milləti, tarixin heç bir dövründə zalıma dəstək verməmiş və hər zaman əzilənin, məzlumun yanında yer almışdır.

Fərqli mədəniyyətlərə və inanclara sahib, fərqli dilləri danışan bir çox milləti eyni bayraq altında və böyük bir həmrəylik çərçivəsində sevgi və hörmət hüdudları içində yaşada bilmək əlbəttə əhəmiyyətli başarıdır. Məşhur mütəfəkkir və yazıçı Volter (1694-1778) "Türklər, müsəlmanlar və digərləri" adlı əsərində bu gerçəyə belə diqqət çəkmişdir:

**Türklərin sənəti komandirlikdir. Otuz milləti bayrağı altında toplayan bir dövlət qurmağı bacarmışlar. Türk imperatorluğu Avropa dövlətlərindən heç birinə bənzəməz...**

Böyük tarixçilərimizdən İ. H. Uzunçarşılı da, Volterin işarə etdiyi bu həqiqəti "Osmanlının tarixi" əsərinin 1-ci cildində bu cümlələrlə təsdiqləmişdir:

**Osmanlılar işğal etdikləri bölgələrdə; o günə qədər əzilmiş, xor görülmüş insanlara düşüncə və vicdan azadlıqlarını tanımışlar, haqsız davranışlara son vermişlər, vergi biyarlarını ortadan qaldırmışlar; qısacası xalqla qaynayıb qarışmışlar.**

Həqiqətən də, ən güclü olduğu dövrlərdə belə müsəlman Türkün, digər xalqları aşağı görən və ya istismar edən bir dünyagörüşü daşımamağı

diqqət çəkicidir. Xalqı əzən, ədalətdən xəbərsiz idarəçi tipinin ön planda olduğu materialist qərb anlayışı, "Dünya hakimi" olduğu dövrdə belə, müsəlman Türk idarəçilərdə əsla görülməmişdir.

Müsəlman Türk milləti, şərtlərin tələb etdiyi müxtəlif çətinliklərə hər zaman dözmüş, müqəddəs dəyərləri uğrunda hər cür çətinliyə sevə-sevə talib olmuşdur.

Əxlaqi dəyərlərini, dinini, milliyyətini, müstəqilliyini, azadlığı və ədaləti sevən müsəlman Türk xalqlarının çiyin-çiyinə verərək böyük bir güc halına gəlməsi, materialist düşüncəyə və yaydığı azğın fəlsəfələrə qarşı ən böyük zərbənin endirilməsi mənasını verəcək. Şübhəsiz, belə bir hadisə dünya tarixində bir dönüş nöqtəsi olacaqdır.

Əslində qarşı-qarşıya olduğumuz hiyləgər hücumlar və təxribatlar, sahib olduğumuz gücü də ortaya qoymaqdadır. Əgər əl-ələ verər, müsəlman Türk şəxsiyyətinə, milli və mənəvi dəyərlərimizə sarılar və tariximizdəki qardaşlıq ənənəsini canlandırsaq böyük bir böhran və qarışıqlıq içində olan dünyaya da işıq tutmamız mümkün olacaq.

Çünki Türklər, yer üzünə hakim olduqları hər dövrdə, dünyaya nizam vermişlər. Böyük Türk xaqanı Bilgə xaqan, əsrlər əvvəl bu vəziyyəti belə açıqlamaqdadır:

**Şərqdə gün doğumuna, Cənubda gün ortasına, Qərbdə gün batmasına, Şimalda gecə ortasına qədər ölkələrdə yaşayan bütün millətlər həmişə mənə bağlıdır. Bu qədər milləti nizama saldım. Artıq qarışıqlıq yoxdur. Türk xaqanı Ötükendə yaşadıqca ölkədə nizam pozulmaz.**

## Türk bəyləri, ey millət, eşidin!

**Yuxarıda göy batmasa, aşağıda yağız (qonur) yer deşilməsə, Türk milləti, sənin vilayətini və mənəviyyatını kim poza bilər? Ey Türk milləti, titrə və**

**özünə qayıt!**

FƏSİL

# Türk milli mədəniyyətinin mənşəyi: mənəvi dəyərlərə bağlılıq

## Mənəvi dəyərlərə bağlılıq





Türkiyənin gələcək əsrdə ətrafında söz sahibi bir dünya gücü halına gələ bilməsi üçün, siyasi və iqtisadi inkişafı ilə yanaşı, milli mədəniyyətini də möhkəm təməllərə oturtması lazımdır.

Milli mədəniyyətimizin təməli, millət tərəfindən müqəddəs saydığımız mənəvi dəyərlər, yəni inanclardır. Şübhəsiz ki, bu dəyərlər birlik və bərabərliyimizin mühafizəsi üçün imtina edilməz bir ehtiyacdır.

Bir millətin fərdlərini bir yerdə tutan ən güclü bağ olan ortaq mənəvi dəyərlər; ailə, əxlaq və dövlət müəssisələrinin də davamını təmin edən ən əhəmiyyətli ünsürdür. Dinin var olmadığı və ya dini dəyərlərin ortadan qalxdığı bir cəmiyyətdə, bunun qaçınılmaz bir nəticəsi olaraq ailə, əxlaq və dövlət anlayışları da etibarlılığını itirəcək və qısa müddət ərzində ortadan qalxacaq. Belə bir inkişaf həmçinin, tarixi və mədəniyyəti nə qədər qədimə söykənərsə söykənsin bir milləti bir-birinə bağlayan milli

və mənəvi bütün bağların parçalanmasını, anarxiyanın baş qaldırmasını və cəmiyyətin bölünməsini qaçınılmaz hala gətirəcək.

Məhz bütün bu səbəblərdən ötəri, cəmiyyətin təhlükəsizliyini qoruyucu xüsusiyyəti daşıyan mənəvi dəyərlərinin davamını təmin edə bilməyən bir xalq, sosioloji və elmi baxımdan ayaqda dayana bilməz. Gərək insan, gərəksə cəmiyyət baxımından dinin lazımlı bir müəssisə olduğunu ifadə edən, siyasi sahədə etdiyi saysız islahatla bu sağlam dünyagörüşünü geniş kütlələrə yaymağı hədəfləyən böyük öndər Atatürk, Türk millətinin dindar olmasını və dini dəyərlərini mühafizə etməsini "Din lazımlı bir müəssisədir. Dinsiz millətlərin davamına imkan yoxdur", "Din vardır və lazımdır" sözləriylə təşviq etmişdir.

Necə ki, tarixə, xüsusilə də Türk millətinin tarixinə baxdığımızda bu qiymətləndirmələrin nə dərəcə məqsədə uyğun olduğunu asanlıqla müşahidə etməkdəyik. Türk millətinin tarixində yer alan bütün güclü və qalıcı dövlətlər, xüsusilə də 6 əsr boyunca dünyanın ən böyük siyasi güclərindən biri olan Osmanlı İmperatorluğu, mənəvi dəyərlərə bağlılıqdan gələn güclü bir mədəniyyət üzərinə yüksəlmişdir.

Şanlı bir tarixə sahib, böyük və köklü bir mədəniyyətin nümayəndəsi olmuş müsəlman Türk milləti, xüsusilə İslamiyyətin qəbulundan sonra daha güclü bağlarla bir-birinə bağlanmışdır.

Sultan Alparslanın Malazgirtdəki zəfərinin ardından, Anadoluda müsəlman Türk xalqının suverenliyi başlamış və mənəvi istiqamətdən edilən fəthlə də bu suverenlik möhkəmləndirilmişdir. Anadolunun qapılarını müsəlmanlara açan Sultan Alparslandan etibarən Türk rəhbərlərin və yanlarındakı heyətlərin ən fundamental xüsusiyyətləri, İslam dininə olan sədaqətləri olmuşdur. Aylarla at belində ordularının başında döyüşən komandirlər, dini geniş kütlələrə çatdırmaq məqsədiylə aylar boyu səfər üstünə səfər təşkil edən şanlı Türk ordusu, İslamı izah

etmək üçün Orta Asiyadakı yurdlarını buraxaraq Anadoluya gedən mənəvi öndərlər həmişə bu bağlılığın ən böyük nümayəndələri olmuşlar.

Türklərin İslamiyyəti qəbulundan sonra qurulan Türk dövlətlərinin (xüsusilə Osmanlı İmperatorluğunun), İslamdan əvvəl qurulan Türk dövlətlərinə görə daha sabit və uzun ömürlü olmasının səbəbi, qaynağını dindən alan bu ortaq şəxsiyyətdir. Çünki din ortaq məxrəci, tarixi şüuru, etnik şəxsiyyət şüuru, dil birliyi, torpaq birliyi kimi ünsürlərdən daha güclü bir şəkildə fərdləri bir-birinə bağlayar. Bu bağ o dərəcə qüvvətlidir ki, millətin siyasi çalxantılar sovuşdurmasını, kənardan gələ biləcək bir hücum, ya da sui-istifadələrə qarşı dayanıqlı olmasını və ayaqda qalmasını təmin edər. Digər tərəfdən dini və milli bağları zəif, hətta dinsiz cəmiyyətlər tarix səhnəsində çox qısa müddət boyunca yer ala bilmişlər və zamanla assimilyasiya olub getmişlər.

Bu sosioloji həqiqət, tarix boyunca həmişə təkrarlamış və dini bağları güclü dövlətlər varlıqlarını davam etdirə bilərkən digərləri xaos, qarışıqlıq və anarxiya içində yox olmuşlar. Yaxşı bunun səbəbləri nələrdir?

## Din olmazsa nə olar?

1) Hər şeydən əvvəl dinin olmadığı bir cəmiyyətdə, dinsizlik və təməli inancsızlıq üzərinə qurulmuş fikirlər rəğbət görər, bir çox azğın fikir sistemi yayılacaq zəmin tapar. Fərdlər öz mənliklərindən, ortaq şəxsiyyətlərindən uzaqlaşarlar. Təməlini Allahı inkar və dinsizlik üzərinə oturtmuş olan materializm kimi fəlsəfələr və kommunizm kimi ideologiyalar o cəmiyyəti qısa zamanda bir tor kimi bürüyər. Qısacası belə bir cəmiyyətdə dinin yoxluğundan meydana gələn boşluğu bölücü və degenerasiya edici fikir sistemləri doldurar.

2) Bunun daha əvvəldən sağlam olmayan bir model meydana gətirdiyi açıqdır. Çünki din, bir əxlaq sistemi və yaşayış formasıdır. İnsanlara doğrunu və səhvi açıq olaraq öyrətdiyindən ötəri, dini dəyərlərə sahib biri, yaxşı ilə pisi bir-birindən ayırmasını bilər. Məsələn, doğru olmanın, tolerant olmanın, vətənini, dövlətini sevmənin yaxşı; fahişəliyin, zülmün, ədalətsizliyin pis olduğunu bilər. Bu səbəbdən din, insanlar arasındakı həmrəylik, dürüstlük, tolerantlıq, ədalət, fədakarlıq kimi ərdəmlərin ən fundamental qaynağıdır. Dinin var olmadığı bir mühitdə bu dəyərlərin heç birindən danışmaq mümkün olmaz. Din yoxsa, əxlaq da yoxdur; dürüstlük, fəzilət, ədalət də yoxdur. Dini inancların qərəzli olaraq yox edildiyi cəmiyyətlərdə isə, bu dəyərlər zamanla itmişdir.

Necə ki, təməllərini inancsızlıq və Allahı inkar üzərinə quran cəmiyyətlərin yaşadıqları degenerasiyanın ölçülərini, bu günün materialist xalqlarında görmək mümkündür. Sovetlər Birliyi, Kuba, Albaniya, Çin kimi nümunələr, bir cəmiyyətdə dinsizlik hakim olduğunda əvvəl sürətli bir əxlaqi degenerasiyanın başladığını, ardından da ictimai əxlaqın qısa zamanda yox olduğunu ortaya qoyan konkret bir dəlil təşkil etməkdədir.

3) İnsanı insan edən əxlaqi dəyərlər etibarlılığını itirdiyi və yox olduğu təqdirdə, cəmiyyətin hər seqmenti və hər fərdi bundan nəsibini alar. Hər fərd yalnız özünü əhəmiyyətli hesab edən və digər heç əhəmiyyət verməyən ayrı "hissə" halına gəlir. Tamamilə dini təşkilat olan ailə və yenə qaynağı din olan evlilik müəssisəsi ortadan qalxar. Çünki dinə inancın olmadığı bir cəmiyyətdə, dinin təşkilatlarının varlığından söhbət gedə bilməz.

4) Bu çarx bir dəfə işləməyə başladığı təqdirdə, dövlətin oturmuş nizamını və millətin yerləşmiş toxumasını da ağıl almayacaq şəkildə korlayar. Çünki dövlətə bağlılıq, vətən sevgisi kimi üstün xüsusiyyətlər yenə dini inancların nəticəsində inkişaf etmiş xüsusiyyətlərdir. Dini olmayan, bu səbəbdən vicdani duyğuları inkişaf etməmiş bir insanın millətini, bayrağını sevməsi, dövlətinə xidmət şüuru içində çalışması, qarşılıq gözləmədən gecə gündüz vətəni üçün keşik çəkməsi əlbəttə düşünülə bilməz. Belə fərdlərin yetişmədiyi, yetişmiş fərdlərin də bu üstün xüsusiyyətlərini itirdiyi bir cəmiyyət, şübhəsiz ki, həm sosioloji baxımdan həm də siyasi olaraq varlığını davam etdirə bilməyəcək. Dinin olmadığı bir yerdə dövlət nüfuzundan, dövlətin varlığından və davamlılığından danışmaq mümkün deyil.



5) Dinə inancın ortadan qalxmasının bir başqa təhlükəli nəticəsi, insanların yavaş-yavaş psixoloji problemlərə məğlub olmağa başlamasıdır. Cinayətlərdəki artım, içki və narkotikə meyllənmə, fahişəliyin yayılması, hüzursuzluq və qarşıdurma mühiti cəmiyyətin psixoloji baxımdan köhnəldiyinin ən konkret əlamətləridir. Bunun təbii nəticəsi olaraq bir-birinə güvənməyən, bir-birini sevib saymayan, yalnız öz həyat mübarizəsini davam etdirməyə çalışan, cəmiyyətin digər üzvlərini isə bir rəqib hətta düşmən kimi görən fərdlər ortaya çıxar. İctimai ədalətsizlik və iqtisadi çətinliklərlə bəslənən bu gərginlik, qısa müddət içində sanki ictimai dəliliyə çevrilər və bunun nəticəsində də cəmiyyət parçalanar.

6) Dünya tarixində bir çox xalq, dini dəyərlərini bir kənara atdığı anda, degenerasiya, ayrılma və parçalanma təhlükəsiylə qarşı-qarşıya qalmışdır. Dünyanın hansı bölgəsində olursa olsun, dini dəyərlər nə vaxt yox edilməyə, inanc azadlığı nə vaxt təzyiq altına alınmağa çalışılsa dövlət əleyhinə anarxist hərəkatlar zirvəyə çıxmışdır. Məsələn, bəzi insanlar şəxsən dövlət nüfuzunu zəifləməyə uğratmaya çalışmış; mövcud nizamı yıxaraq marksist rejim təsis etməyə çalışmış; əsrlərlə bir yerdə yaşamış bir milləti düşərgələrə bölməyə cəhd etmiş; cəmiyyəti sağ-sol qarşıdurmalarıyla vətəndaş müharibəsinin kənarına gətirmiş; sol zərbə xəyallarıyla tətillər, üsyanlar, etiraz nümayişləri etmiş və ictimai çalxantılara səbəb olmuşlar.

Tarixdə bir çox dəfə bu kritik dövrləri yaşamış olan müsəlman Türk milləti, dindən kənar ideologiyaların, marksizmin, kommunizmin bir ölkəyə daxili hüzur, güvən, rifah və inkişafdan daha çox terror, anarxiya, xaos və qarışıqlıq gətirdiyini artıq görmüşdür.

7) Din ortaq məxrəcinin yox olması, xalqlararası sülhü də təhdid edən əhəmiyyətli bir təhlükədir. Dinin ortaq tolerantlığında bir-birləriylə

uyğun bir şəkildə yaşayan xalqlar, bu tolerant və qarşılıqlı razılıqlar zəmini olmadığı təqdirdə bir-birləriylə zidd düşəcək, yer üzündə xaos və böyük bir qarışıqlıq meydana gələcəkdir.

Bura qədər etdiyimiz analizlərə və "Dinsiz cəmiyyətlərin davamına imkan yoxdur" sosioloji faktın tarixdəki konkret dəlillərinə söykənərək söyləyə bilərik ki, Türkiyənin davamlılığı üçün dini şəxsiyyətimizin qorunması və gücləndirilməsi həyati əhəmiyyətə malikdir. Çünki dini dəyərlərin yox olmasının alternativi yoxdur. Dinsizlik və təməli dinsizliyə söykənən cərəyanlar heç vaxt alternativ ola bilməzlər. Bu cərəyanlar tarixdə heç bir zaman, heç bir cəmiyyətə, millətə və dövlətə ən kiçik bir fayda gətirməmişdir.

Müsəlman Türk milləti, mövcud olan bu anlayış sayəsində ən çətin dövrlərində belə İslamın bayraqdarlığını etmiş, bu sayədə mövcudiyyətini, bütünlüyünü və nüfuzunu mühafizə etmişdir. 2000-ci illəri müasir, qabaqcıl və rifah səviyyəsi yüksək bir Türkiyə olaraq qarşılamaq istəyənlər, bunun ancaq dini şəxsiyyətimizin qorunması ilə reallaşa biləcəyini, yoxsa dinin olmadığı bir mühitdə cəmiyyətdən də, millətdən də, dövlətdən də söz edilə bilməyəcəyini bilməlidirlər.

FƏSİL

# Müasir Türkiyənin önündəki ən gözəl nümunə

## Atatürkün mirası milliyyətçi-müqəddəsatçı Cümhuriyyətçilik



Anadolu torpaqlarını düşmən işğalından qurtaran Böyük Öndər Atatürk, dörd illik Milli Mübarizəni tamamladığında, Türk milləti üçün yeni bir yol çəkməsi lazım olduğunu düşünürdü. Necə ki, həyatının geri qalan qismini, ən az Milli Mübarizə qədər əhəmiyyətli olan bu yeni yolu meydana gətirməyə ayırdı. Bu yeni yolun ən əhəmiyyətli xüsusiyyəti isə, Cümhuriyyət nizamının təsisi oldu.

Atatürkün bizə miras buraxdığı dünya görüşünə, siyasət anlayışına, dövlət ənənəsinə və mədəniyyətə baxdığımızda, böyük öndərin həqiqətdə bu

gün "milliyyətçi-mühafizəkar" anlayışları ilə təyin etdiyimiz sintezin sahibi olduğunu görərik. Atatürk bizə; sərhədləri Türkiyəni də aşan bir Türk milliyyətçiliyini, liberal iqtisadiyyat anlayışını, şərəfli ancaq qarşılıqlı razılaşma və stabil xarici siyasət üsulunu, dinə son dərəcə hörmətli dünyəvilik düşüncəsini buraxmışdır. O, həm bir Osmanlı paşası, həm də Türkiyə cümhuriyyətinin qurucusu olaraq Osmanlı ənənəsini müasirləşdirərək 20-ci əsrə çatdıran böyük dahidir. Bizə düşən isə, eyni ənənəni yenə müasirləşməni qoruyaraq 21-ci əsrə daşımaq olacaq.

## Atatürkün milliyyətçiliyi

Atatürkün bizə buraxdığı ən əhəmiyyətli fikri mirası milliyyətçilikdir. Bu milliyyətçilik, Ziya Gökalpın "mədəni milliyyətçiliyi" anlayışına söykənər. Buna görə bu torpaqlar uca Türk millətinin torpaqlarıdır. Türk millətini var edən və yaşadan ünsür isə mədəniyyətdir. Bu səbəbdən Türk millətinin bir hissəsi olmaq üçün, etnik olaraq Türk olmaq şərt deyil. Türk mədəniyyətini mənimsəyən və özünü Türk hesab edən hər kəs bu millətin bir parçasıdır.




Burada Atatürkün Türk milliyyətçiliyinin Türkiyə sərhədlərini də aşan bir Türklük şüuruna söykəndiyini söyləməliyik. Böyük öndər, Türkiyə sərhədləri xaricində yaşayan türklərə hər zaman əhəmiyyət vermiş, hətta gələcəkdə bir "Türk birliyi" qurulmasının həsrətini duymuşdur.

Atatürk milliyyətçiliyi, Anadolu torpağını vətən bilən və "Türküm" deyən hər insanı, hansı irq və ya etnik mənşədən olursa olsun bir dam altında birləşdirmişdir. Milliyyətçilik, təməldə, birlik və bərabərlik mühitinin

tam mənasıyla təmin edilməsini məqsəd qoyan bir Atatürkçülük qanunudur.

Atatürk milliyyətçiliyi, Türk millətinə mənsub olmaqla öyünməyi, Türk millətinə inanmağı və güvənməyi əsas alar. O, bu mövzudakı fikrini belə yekunlaşdırmışdır:

**Türk milliyyətçiliyi, irəliləmə və inkişaf yolunda və beynəlxalq təmas və əlaqələrdə, bütün müasir millətlərə paralel və onlarla uyğunluq içində olmaqla birlikdə, Türk cəmiyyətinin xüsusi xarakterini və başlı başına müstəqil şəxsiyyətini qorumaqdır.**

## Atatürkün mühafizəkarlığı

Atatürk milliyyətçiliyinin bir başqa özünə xas istiqaməti isə, hər cür materialist fikirlərin əksinə dinə və dini dəyərlərə böyük əhəmiyyət verməsidir. Böyük öndər, əvvəlki səhifələrdə də ifadə edildiyi kimi, İslamın Türk milli şəxsiyyətinin çox əhəmiyyətli bir hissəsi olduğu və bu hissə olmadan o şəxsiyyətin qoruna bilməyəcəyi həqiqətini bir çox vəsiləylə ifadə etmişdir.

Atatürkün, Cümhuriyyətin ilk illərində tətbiq etdiyi əhali siyasətində də bunu görmək mümkündür. Cümhuriyyətin ilk illərində, Türkiyə əhalisinin mümkün qədər müsəlmanlardan meydana gəlməsi üçün səy göstərilmişdir. Atatürk, etnik olaraq Türk olmadıqları halda müsəlman şəxsiyyəti ilə Türkiyəyə bağlı olan boşnaklar, çərkəzlər kimi azlıqların Türkiyəyə köç istəklərinin hamısını müsbət qarşılamışdır. Hətta bəzi tarixçilər bu siyasət səbəbiylə Atatürkün Türk milliyyətçiliyinin bir istiqamətdən də "müsəlman milliyyətçiliyi" olduğunu söyləyərlər.

Bu Atatürkün əsl irsinin Türk siyasi və fikri həyatında "milliyyətçi-mühafizəkar" xətti ilə təmsil etdiyinin aydın göstəricisidir.



Atatürkün milliyyətçi-mühafizəkar şəxsiyyətini ortaya qoyan ünsürlərin bir başqası, "milli əxlaq" anlayışına verdiyi əhəmiyyətdir. Atatürkə görə milli əxlaq, bir millət meydana gətirmənin ilk şərtini təşkil etməkdədir. Atatürk, bu mövzudakı fikrini, "Mükəmməl bir millətdə, milli əxlaqın zərurətləri, o millətin fərdləri tərəfindən, heç tərəddüd etmədən vicdanı və hissi bir şövqlə edilər. Ən böyük milli həyəcan məhz budur." sözləriylə yekunlaşdırmaqdadır (Afet İnan, Atatürk Hakkında Hatıralar ve Belgeler, səh. 302)

Atatürk, milli əxlaq anlayışını "müqəddəs" bir dəyər olaraq qəbul etmiş və bu inancını bir çox dəfə ifadə etmişdir. 1930-cu ildə öz əl yazısıyla yazaraq prof. dr. Afet İnana təslim etdiyi qeydlər arasında "Əxlaq müqəddəsdir; çünki eyni dəyərdə bərabəri yoxdur və başqa heç bir növ bu dəyərlə ölçülə bilməz" şəklindəki sözləri yer almaqdadır (Afet İnan, Atatürk Hakkında Hatıralar ve Belgeler, səh. 362).

## Atatürkün böyük mirasının mənası



Atatürk dövrünü həqiqi bir gözlə araşdırdığımızda, onun həqiqətən də bu günün anlayışlarıyla "milliyyətçi-mühafizəkar" olduğunu görərik.

Atatürk; tam bir Türklük və Türkiyə sevgisinə sahib olan; xarici siyasətdə Türk milli mənfəətlərinin müdafiə olunması üçün çox bəsirətli və (Hatay nümunəsində olduğu kimi) mübarizəçi davranan; sosialist cərəyanlara mane olan hər zaman üçün inkişafın əsl yolu olan xüsusi cəhdə dəstək olan; Qərblə lazım olduğunda mübarizə edən, amma əsas nöqtənin Qərb tərzi demokratik "müasir mədəniyyət" olduğunu bilən; dünyəviliyi cəmiyyətin hüzuru və dövlətin davamlılığı üçün zəruri görən, ancaq eyni zamanda dinə böyük hörmət bəsləyən və hətta dinin doğru başa düşülməsi və yaşanması üçün səy göstərən bir liderdir.

Bu sifətlərin hamısı milliyyətçi-mühafizəkar istiqamətə işarə etməkdədir.

FƏSİL

# Milli mədəniyyətimizin mühafizəsi və yeni nəsillərə çatdırılması

Siyasət adamları, milli mədəniyyətin xüsusilə də 21-ci əsrdə hər dövr olduğundan daha təsirli bir faktor olacağını düşünməkdədirlər. Buna görə Türkiyənin gələcəyi, tarix boyunca dəstək olmuş olduğu mədəniyyətini, ya da bir başqa ifadəylə Türk-İslam mirasını müasirləşdirərək sonrakı nəsillərə çatdırılmasında yatmaqdadır.



Milli mədəniyyətimizin inkişafı üçün ediləcək olan ilk böyük xidmət, Türk milli mədəniyyətinin davamlılığına qarşı orta və uzun müddətdə yaranan təhdidləri diaqnoz etməkdir. Bu təhdidlərə qarşı Türk milliyyətçisinə düşən, öz milli mədəniyyətini, milli mədəniyyətini mühafizə etmək üçün bütün bu təhdidlərə qarşı ciddi çözümlər tapmaqdır.

Bu müqəddəs vəzifəni iki təməl platformada icra etmək mümkündür.

Birincisi, milli mədəniyyətin davamlılığı, inkişaf etdirilməsi, canlı tutulması, cəmiyyətə və xüsusilə də gənc nəsillərə aşılanması üçün tətbiq olunacaq geniş bir təhsil və təbliğat proqramıdır.

İkincisi, milli mədəniyyətimizi təhdid edən ünsürlərə qarşı inkişaf etdirilməsi lazım olan konkret bir qarşı-təbliğat və fikri mübarizə strategiyasıdır.

## 1) Milli mədəniyyətin qorunması üçün proqram

**a)** Milli təhsilin təşkil edilməsi:

Bu hədəf üçün təşkil edilməli olan təşkilatların başında məktəblər gəlməkdədir. Bu gün Türkiyədəki bütün məktəblərdə "Milli tarix" başlığı altında dərslər tədris olunur, ancaq bu dərslər lazımlı milli tarix şüurunu verməkdə yetərsiz qalmaqdadır.

Gənc nəsillər ibtidai məktəb, orta məktəb və lisey təhsili əsnasında Türk millətinin tarixini daha ətraflı, daha maraqlı şəkildə öyrənməli, tarixdəki Türk başarıları ilə qürur duyacaq şüura qovuşdurulmalıdır. Bunun üçün də şübhəsiz həm təhsil tədris planları yenidən nəzərdən keçirilməli, həm də müəllimlərin yaxşı bir şəkildə yetişdirilməsinə diqqət yetirilməlidir.

b) Medianın milli mədəniyyətə xidmət etməsi üçün istiqamətləndirilməsi:

Bu gün cəmiyyət şüuru üzərində ən çox təsirə sahib olan güc, media, xüsusilə də televiziyadır. Bu kanal istifadə edilərək cəmiyyətin öyrədilməsi son dərəcə səmərəli olacaqdır.

Ancaq çox təəssüf ki, Türkiyədə televiziya müsbət funksiya daşımaqdan çıxmış, yalnız ticari vasitə halına çevrilmişdir. Ən çox seyr edilən xüsusi televiziya kanallarında yalnız "əyləncə" proqramları yer almaqda, heç bir ibrətamiz proqramlar yer almamaqdadır. Bu halıyla televiziya, kütlələri öyrədən bir vasitə ola biləcəyi halda, kütlələrin zehnini boşaldan, onları şüursuzlaşdıran bir vasitə halına çevrilmişdir. Hətta xüsusi televiziya kanalların, həmişə ekrana gətirdikləri bəzi proqramlar və filmlər nəticəsində, Türk milli mədəniyyətini, ənənə və adətlərini aşındıran, bunların yerinə materialist anlayışı və dünya görüşünü kütlələrə təlqin edən bir vasitə mövqeyinə gəldiyini söyləyə bilərik.

Milli mədəniyyətin əhəmiyyətini idrak etmiş vətənpərvərlər, media kimi güclü bir potensialı şübhəsiz təlimatçı və faydalı bir şəkildə istifadə etməlidir. Fransa kimi demokratik ölkələrdə də edildiyi kimi, media milli mədəniyyətə xidmət etməyə təşviq edilməli, milli mədəniyyəti degenerasiya edən yayımlar süzgəcdən keçirilməlidir.

Bununla yanaşı, Mədəniyyət Nazirliyi tərəfindən hazırlanacaq olan təlimatçı və şüurlandırıcı proqramların xüsusi televiziya kanalları tərəfindən yayımlanmasını təmin edəcək qanuni tənzimləmələrə gedilməlidir. Bu televiziya kanalları seyr edən, hətta bu televiziya kanallar xaricində bir məlumat qaynağı olmayan kütlələr, minlərlə məqsədsiz proqram yerinə, bu cür faydalı proqramlar ilə öyrədilə bilər.

c) Akademik araşdırmaların dəstəklənilməsi:

Milli şəxsiyyətin meydana gəlməsindəki ən əhəmiyyətli iki ünsür bilindiyi kimi dil və tarixdir. Cümhuriyyətin ilk illərində qurulan Türk Dil və Türk Tarixi Təşkilatlarının bu mövzuda etdiyi işlər bilinməkdədir. Ancaq xüsusilə son vaxtlarda bu mövzuya kifayət qədər əhəmiyyət verilməməkdədir.

Halbuki, milli şəxsiyyətin mühafizəsi mövzusunda dil və tarix araşdırmaları son dərəcə böyük əhəmiyyətə malikdir. Bu sahəyə veriləcək qaynaqlarla, Türk tarixinin daha yaxşı araşdırılması, yeni tapıntıların ortaya çıxardılması təmin edilməlidir. Universitetlərdə mövzu haqqındakı kürsülərin genişlədilməsi, akademik karyer etmək istəyənlərin bu mövzuda təşviq edilməsi faydalı olacaqdır. Bu araşdırmalarla əldə edilə biləcək olan müvəffəqiyyətli tapıntılar, həm qısa, həm də uzun zamanda Türk Milli şüurunun və mədəniyyətinin inkişafında iştirak edəcəkdir. Həmçinin, Türkiyə sərhədləri xaricində yaşayan türklərdən məsul və geniş səlahiyyətə sahib bir dövlət nazirliyinin qurulması, orta və uzun

müddətdə Türk dünyasının inteqrasiya olunması üçün şübhəsiz son dərəcə faydalı olacaqdır.

## 2) Milli mədəniyyəti zədələyən təhdidlərlə mübarizə

Milli mədəniyyətimizi bizdən sonrakı nəsillərə düzgün şəkildə çatdırıla bilmə missiyası, bizləri, bu mədəni mirası korlayacaq fikir axınlarına qarşı son dərəcə həssas olmağa yönəltməkdədir. Bu fikir axınlarının ən əhəmiyyətlisi və təməli isə, heç şübhə yox ki, materialist fəlsəfədir.

Materializm, maddənin sonsuzdan bəri mövcud olan mütləq və yeganə varlıq olduğu iddiasına söykənər. Maddənin xaricində heç bir maddə-sonrası varlıq və məna olmadığına inanar. Diqqət yetirilsə materializm, milli mədəniyyətin təməli olan hər cür mənəvi anlayışı rədd etməkdədir. Materializmin korladığı bu anlayışların başında əxlaq, ailə, vətən sevgisi, cəmiyyət üçün fədakarlıq kimi ərdəmlər gəlir. Bu cür ərdəmləri olmayan bir cəmiyyətin qısa müddətdə dağılıb bölünəcəyi açıqdır.

Bu gün xüsusilə gənc nəsil üzərində təsirli olan bu təhdidə qarşı, Ziya Gökalpın "Türkləşmək, İslamlaşmaq, müasirləşmək" düsturu istifadə edilməlidir. Gökalp, türkləşmənin və İslamlaşmanın müasir, yəni çağdaş olmağa bir maneə təşkil etmədiyini, əksinə üçünün bir yerdə olacağını söyləmişdi. Bu gün də materialist mədəniyyət içində şüursuzlaşmış olan cəmiyyət seqmentlərinə, xüsusilə də gənclərə bu düstur yaxşı şəkildə öyrədilməlidir.

Bu gün gəncliyin bir qismi, müasirləşməyi öz şəxsiyyətindən güzəştə gedərək "qərblilər kimi olma" şəklində qəbul etməkdədir. Halbuki qərbliləşmək demək, texnologiyanın ən son gəldiyi sərhədi istifadə edə bilmək, elm sahəsində iştirakçı olmaq, qarşısındakının haqlarına hörmətli olmaq, tolerant və ədalətli olmaq, cəmiyyətin bütünlüyünü təmin edən təməl quruluş olan ailənin qorunması deməkdir.

Ediləcək olan, milliyyətçiliyi və milli şəxsiyyəti mühafizə edərkən siyasi və iqtisadi istiqamətdən onlarla ayaqlaşacaq, nümunə olacaq bir səviyyəyə gəlməkdir. Gəncliyə bunu qavratdığımız təqdirdə, böyük bir məsafə qət edilmiş olacaq.

FƏSİL

# Nəticə olaraq...

70 il davam edən bir dövrün ardından Şərq blokunun və marksizmin çökməsindən ən çox təsirlənən ölkələrdən biri də heç şübhəsiz Türkiyə olmuşdur. Bir çox mütəxəssisə görə, Türkiyənin qarşısına, bir ölkənin əlinə min ildə bir keçəcək fürsət çıxmışdır. Bu fürsət, "Türk dünyası"dır.



Əsrlərdir İslamın bayraqdarlığını edən müsəlman Türk Milləti, bu gün də müasir, aydın və güclü quruluşuyla gerilikdən və həddindən uzaq qatqısız din anlayışıyla bu vəzifəni boynuna götürə biləcək ən uyğun quruluşa malikdir. Müsəlman Türk milləti dünyaya nümunə olmaq üçün lazım olan bütün üstünlükləri və xüsusiyyətləri bünyəsində layiqi ilə saxlamaqdadır.

Super dövlətlər qurmaq müsəlman Türkün peşəsidir. Tarix bunun ən böyük şahididir. Bu gün özbəkindən azərbaycanlısına, türkmənindən qırğızına bütün müsəlman Türk xalqları sanki nəfəslərini tutmuş bir şəkildə Türkiyənin birlik mövzusunda atacağı addımları gözləməkdədir. Çünki bu, bütün dünya millətləri üçün bir ümid işığıdır. Bu gün yer üzündə əksikliyi hiss edilən ədalətin, sülhün və qardaşlığın təmin edilməsi müsəlman Türkün rahatlıqla bacara biləcəyi bir işdir.

Tarixdə olduğu kimi dövrümüzdə də, həqiqi mənasıyla sülh və ədalətin təmininin müsəlman türklərin boynuna götürəcəyinin yüzlərlə işarəsi meydana gəlmişdir. Türk millətinin İslam əxlaqıyla birləşdirdiyi iman, cəsarət, əzm, səbir, iradə kimi üstün xüsusiyyətləri dünya millətlərinə nümunə olacaqdır.

KİTAB HAQQINDA

**Əsrlərdir İslamın bayraqdarlığını edən müsəlman Türk Milləti, bu gün də müasır, aydın və güclü quruluşuyla gerilikdən və həddindən uzaq qatqısız din anlayışıyla İslamın əsl mahiyyətini dünyaya nümayiş etdirməkdədir.**

Super dövlətlər qurmaq müsəlman Türkün peşəsidir. Tarix bunun ən böyük şahididir. Bu gün özbəkindən azərbaycanlısına, türkmənindən qırğızına bütün müsəlman Türk dünya üzərində ən gözəl birlik qurmağın perspektivini gözləməkdədir.

Tarixdə olduğu kimi dövrümüzdə də, həqiqi mənasıyla sülh və ədalətin təmininin müsəlman türklərin boynuna götürəcəyinin yüzlərlə işarəsi meydana gəlmişdir. Türk-İslam birliyi, Allahın izniylə, bu işarələrin ən parlağıdır.

— HARUN YƏHYA —